Ədalət.-2016.-29 senyabr.-S.4.

# Əməkdar jurnalist Hikmət Xudiyevin növbəti kitabı işıq üzü görmüşdür

**Oxucularla növbəti görüşə gələn əməkdar jurnalist Hikmət Xudiyev (Cəmilzadə) "Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabında Qarabağın nüfuzlu simalarından olan el ağsaqqalı, ömrünün əlli ilini Ağdamda müəllimlik fəaliyyətinə həsr etmiş Böyük Vətən müharibəsinin iştirakçısı Zülfüqar Səfərəliyevin şərəfli ömür yolundan bəhs etmişdir.**

"Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı bir sıra maraqlı məqamlarla diqqəti cəlb edir. Kitabda müəllif Zülfüqar Səfərəliyevin soy-kök şəcərəsini açıqlamaqla, onun mənsub olduğu nəslin nümayəndələri olan görkəmli dövlət xadimi Pənahəli xan və onun yaxın ətrafındakı insanlar haqqında jurnalist tədqiqatı ilə əldə etdiyi məlumatları verməklə bir daha bəyan edir ki, Qarabağ tarixən azərbaycanlılara məxsus olub.

"Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı Zülfüqar Səfərəliyevin Böyük Vətən müharibəsindəki şərəfli döyüş yolundan bəhs edərək gənclərimizdə hərbi-vətənpərvərlik




hisslərini aşılamaq baxımından da dəyərlidir. Bu kitab Böyük Vətən müharibəsinin odlu-alovlu cəbhələrində vuruşmuş 700 mindən artıq soydaşımızın əziz xatirələrinə sevginin təzahürüdür.

Zülfüqar Səfərəliyevin 50 illik pedaqoji fəalliyyətindən söhbət açan "Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı müəllimlik peşəsinə yüksək ehtiramın nümunəsi sayıla bilər.

"Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabında müəllif Zülfüqar Səfərəliyevin tərbiyə etdiyi, təhsil verdiyi övladlarının cəmiyyətimizdə tutduqları mövqeləri açıqlamaqla nümunəvi ailə başçısı, ləyaqətli ata obrazını yaratmışdır.

"Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı xatirələrdə ailədə kişi xasiyyətli ər, tələbkar və mərhəmətli ata, kövrək və mülayim baba, doğmalığı ilə seçilən qayinata, istiqanli, qayğikeş qohum kimi yaşayan Zülfüqar Səfərəliyev kimi insanların xatirəsini yaşatmaqla və onu təbliğ etməklə cəmiyyətimizə, gənclərimizə örnək, tərbiyə məktəbi kimi tərbiyəvi əhəmiyyət kəsb edir.

Ümummilli liderimiz Heydər Əliyevdən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdən, islami dəyərlərdən gətirilən sitatlar "Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabının məzmun yükünü daha da artırmışdır.

Bədii tərtibatı ilə zövq oxşayan və nəfis şəkildə çap olunmuş"Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı Qurani-Kərimin Maidə surəsindən "Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın" ayəsi ilə bitir. Müəllif bununla və həm də xeyirxah əməlləri ilə tanınmış Zülfüqar Səfərəliyevin ömür yolunu təbliğ etməklə insanları bir daha xeyirxah əməllərə, daim mərhəmətli olmağa çağırır.

Qarabağ sevgisi və nisgili ilə yazılmış "Şəxsiyyət ömrü - nəsillərə nümunə" kitabı müəllifin respublikamızda və xarici ölkələrdə - Almaniyada, Polşada, Ukraynada çəkdiyi fotolarla da diqqətəlayiqdir.

**Kitaba ön sözü uzun illər Ağdam rayonuna rəhbərlik edən, Zülfüqar Səfərəliyevi yaxından tanıyan filologiya üzrə fəlsəfə doktoru Sadıq Murtuzayev yazmışdır. O, Zülfüqar Səfərəliyevin humanist keyfiyyətlərindən, pedaqoji fəaliyyətindən, əsil Azərbaycan kişisinə məxsus xarakterindən söz açaraq onu yüksək dəyərləndirir: "Zülfüqar Səfərəliyev sözün həqiqi mənasında nurlu şəxsiyyət, ləyaqət mücəssəməsi idi. Bu sözləri mən bəlkə də on min, bəlkə də yüz min insandan biri üçün işlədərdim".**

**Rövşən Bəkirov**